Anadolu Türk Eğitim Dergisi
Anatolian Turkish Journal of Education
ISSN:2867-5314

Yıl/Year: 2024 Cilt/Volume: 6 Sayı/Issue: 1 (Nahçıvan Özel Sayısı) ss/pp. 1-10

Makale Geliş Tarihi: 23/05/2024
Makale Kabul Tarihi: 30/05/2024
Makale Yayın Tarihi: 05/06/2024
Makale Türü: Orijinal Araştırma Makalesi

# AZƏRBAYCANDA TƏHSİLİN MODERNLƏŞDİRİLMƏSİ: PROBLEMLƏR VƏ PERSPEKTİVLƏR*

**Salatin HACIYEVA****
Dos.dr. Naxçıvan Dövlət Universiteti, Pedaqogika və psixologiya kafedrası, Azərbaycan/ Naxçıvan
e-posta: salatinhaciyeva72@gmail.com,https://orcid.org/ 0009-0004-4913-4074

**Sevinc ORUCOVA**
Dos.dr. Naxçıvan Dövlət Universiteti, Pedaqogika və psixologiya kafedrası, Azərbaycan/ Naxçıvan
e-posta: s.orucova.71@gmail.com, https://orcid.org/0009-0000-2464-3199

## Özet

Azərbaycan təhsil siyasətinin əsas vəzifəsi onun fundamentallığının qorunması, şəxsiyyətin, cəmiyyətin və dövlətin aktual və perspektiv tələbatlarının nəzərə alınması əsasında təhsilin keyfiyyətinin yüksəldilməsindən ibarətdir. Təhsilin modernləşdirilməsi siyasi və ümummilli məsələdir. Cəmiyyətin və dövlətin təhsil sahəsində maraqları təhsil sisteminin bu sahədə öz maraqları ilə həmişə üst - üstə düşmür və buna görə də təhsilin modernləşdirilməsi və inkişafı istiqamətlərinin müəyyənlənləşdirilməsi təhsil ictimaiyyəti və təhsil şöbələri çərçivəsində məhdudlaşdırıla bilməz. Azərbaycan cəmiyyətinin bütün vətəndaşları, ailə və valideyn cəmiyyətləri, dövlət hakimiyyət orqanları, yerli özünüidarəetmə orqanları, peşə - pedaqoji ictimaiyyət, elmi, mədəni, kommersiya və ictimai institutlar bütövlükdə təhsil siyasətinin fəal subyektlərinə çevrilməlidir. Təhsilin modernləşdirilməsinin əsas məqsədi təhsil sisteminin davamlı inkişafı mexanizmini yaratmaqdır. Müasir şəraitdə təhsilin rolunun artması onunla bağlıdır ki, postindustial dövrdə sosial – iqtisadi inkişafın hərəkətverici qüvvəsinə çevrilən insan kapitalının inkişafını və yenidən istehsalını təmin edir. Psixoloji və pedaqoji anlayışlara əsasən insan kapitalı mütəxəssisin sosial və peşəkar səriştəsi kimi müəyyən edilə bilər. Bu, müxtəlif şəxsi və peşə vəzifələrini məsuliyyətlə və səmərəli həll etməyə hazırlıq və qabiliyyəti təmin edən bilik və təcrübə, dəyərli şəxsi – peşə keyfiyyətləri kimi ortaya çıxır. A. Mehrabovun vurğuladığı kimi, təhsilin modernləşdirilməsinin əsas istiqamətlərindən biri də insan kapitalının inkişafı ilə bağlıdır. İnkişaf etmiş ölkələrdə insan kapitalı milli sərvətin 70-80 %-ni təşkil edir. Bu da həmin ölkələrdə gənclərin, eləcə də əhalinin hamısının həyat boyu təhsillənməsinin inkişafını ön plana çəkir.

**Açar sözlər:** Təhsil, modernləşmə, müasir dövr, inkişaf, cəmiyyət

# MODERNIZATION OF EDUCATION IN AZERBAIJAN: PROBLEMS AND PROSPECTS

## Abstract

To preserve its fundamentality, to improve the quality of education based on the consideration of the actual and prospective needs of the individual, society and the state is the main task of Azerbaijan educational policy. Modernization of education is a political and national problem. The interests of society and the state in the field of education do not always coincide with the own interests of the educational system in this area, and therefore the definition of directions for the modernization and development of education cannot be limited to the educational community and departments of education. All citizens of Azerbaijani society, family and parent societies, state authorities, local self-government bodies, the professional and pedagogical community, scientific, cultural, commercial and public institutions should become active subjects of educational policy in general. The main goal of modernizing education is to create a mechanism for the sustainable development of the education system. The importance of education in modern conditions is due to the fact that it ensures the development and reproduction of human capital, which in the post–industrial period becomes the driving force of socio-economic development. Based on psychological and pedagogical concepts, human capital can be defined as the socio-professional competence of a specialist. This manifests itself as knowledge and experience, valuable personal and professional qualities that ensure readiness and ability to responsibly and effectively solve various personal and professional tasks. Mehrabov stressed that one of the main directions of modernization of education is related to the development of human capital. In developed countries, human capital accounts for 70-80% of national wealth. This puts the development of youth education in these countries at the forefront, as well as the education of the entire population throughout their lives. Strategic planning of higher education institutions is studied in the article.

**Key words:** education, modernization, modern period, development, society

**Atıf / Citation**
Hacıyeva, S. və Orucova, S. (2024). Azərbaycanda Təhsilin Modernləşdirilməsi: Problemlər və Perspektivlər, *Anadolu Türk Eğitim Dergisi*, *6* (1), 1-10.
Hacıyeva, S. & Orucova, S. (2024). Modernization of Education in Azerbaijan: Problems and Prospects. *Anatolian Turkish Journal of Education*, *6* (1), 1-10.

---

*Bu çalışmada "Yükseköğretim Kurumları Bilimsel Araştırma ve Yayın Etiği Yönergesi" kapsamında uyulması belirtilen tüm kurallara uyulmuştur.
**Sorumlu yazar.

## Giriş

Hazırda bütün dünyada təhsilin inkişafı üç aparıcı amilin təsiri altında baş verir: biliyə əsaslanan cəmiyyətin formalaşması, informasiya – kommunikasiya inqilabı və qloballaşma. Baş verən bu proseslər sosial institut kimi ali təhsilin rolunu, vəzifələrini, strukturunu və fəaliyyət şəraitini əhəmiyyətli dərəcədə dəyişdirir. Davamlı sosial inkişaf və makroiqtisadi artıma nail olunmasında ali təhsilin rolu kəskin surətdə artır. Xarici mühitin yüksək burulğanlılığı, ümumi sosial - iqtisadi qeyri – sabitlik və qlobal təhlükələr şəraitində ali təhsilin inkişafı dövlət idarəçiliyinin ən mühüm prioritet məsələlərindən birinə çevrilir. Yüksək ixtisaslı mütəxəssislərin sayının artması, əhalinin ümumi təhsil səviyyəsinin yüksəldilməsi, xalqın biliklərdən səmərəli istifadə etmək qabiliyyətini müəyyənləşdirir. Təsvir edilən tendensiyalar çərçivəsində Azərbaycanda cəmiyyətin sosial və iqtisadi inkişafı üçün zəruri olan insan kapitalının inkişafına tələbat hiss olunur. Belə bir şəraitdə ali təhsilin əhəmiyyətini qiymətləndirmək çətindir. Məhz bu sosial institut yeni dövrün insanını – peşəkar yaradıcı yönümlü, çevik və innovativ təfəkkürə malik mütəxəssisi yaradır, hansı ki, onsuz biliyə əsaslanan cəmiyyət qurmaq mümkün deyil.

Azərbaycan ali təhsilinə qlobal tendensiyalarla yanaşı, milli – mədəni, tarixi xüsusiyyətlər və ölkədəki mövcud vəziyyət də əhəmiyyətli dərəcədə təsir göstərir. 1990-cı illərin əvvəllərindən etibarən, Azərbaycan təhsil sistemi əhəmiyyətli dəyişikliklərə məruz qalmışdır. Təhsil sistemindəki məzmun və struktur dəyişiklikləri, onun idarə edilməsi mexanizmlərinin təkamülü sosial – iqtisadi və siyasi şəraitin dəyişilməsi nəticəsində yaranan yeni çağırışlara cavab reaksiyası oldu. Bununla belə, bu sahənin maliyələşdirilməsindəki çatışmazlıq, əmək bazarı ilə təhsil sistemi arasında uçurumun dərinləşməsi, təhsilin əlçatanlığının qeyri – bərabərsizliyi kimi problemlər hazırda Azərbaycanda ali təhsilin inkişafının qarşısını alır. Bu problemlərin həlli Azərbaycanda ali təhsilin biliyə əsaslanan cəmiyyətin ehtiyaclarına cavab verən, keyfiyyətcə yeni səviyyəyə qalxmasına imkan yerir. Bu baxımdan Azərbaycanda təhsilin modernləşdirilməsi problemi mühüm əhəmiyyət kəsb edir. Şübhəsiz ki, regionun inkişafında həlledici rolu regional universitetlər - yerli əmək bazarının universitetləri oynamalıdır. Bu kateqoriyadan olan universitetlərin əsas strateji vəzifəsi regionun sosial - iqtisadi inkişafını təmin etməkdən ibarətdir. Ali məktəblərin elmi və kadr potensialı iqtisadiyyat sektorunun rəqabətəqabil kadrlarla, yeni unikal istehsal texnologiyaları və məhsulları ilə təmin edilməsində həlledici rol oynayır. Bu baxımdan Azərbaycan təhsil sisteminin qlobal təhsil məkanına inteqrasiyanın mühüm şərti olan təhsilin keyfiyyətinin yüksəldilməsi məsələsi də aktuallıq qazanır. Regional universitetlərdə təhsilin keyfiyyətinin yüksəldilməsi ilk növbədə təcrübə yönümlü təlimin həyata keçirilməsi yolu ilə əldə edilə bilər. Beləliklə, yerli universitetlərin həm davamlı inkişaf, həm də regioanl və beynəlxalq əmək bazarında tələb olunan rəqabətqabiliyyətli kadrların hazırlanması baxımından hər cür imkanı vardır**.**

Təhsilin modernləşdirilməsi xeyli maliyyə, zaman və insan resursları tələb edir, həmçinin bu prosesin uğurla həyata keçirilməsi üçün fundamental elmi - yanaşmaların tətbiqi də vacibdir. Təhsil sisteminin modernləşdirilməsi innovativ iqtisadiyyatın formalşmasının ən mühüm şərtidir. Buna uyğun olaraq dövlətin təhsil sahəsindəki strateji məqsədi modern iqtisadiyyatın tələblərinə cavab verən keyfiyyətli təhsilə əlçatanlığın yüksəldilməsi ilə bağlıdır. Təhsilin modernləşdirilməsi dünya ölkələrinin yerli və milli təhsil sistemlərini yaxınlaşdırmaq və uyğunlaşdırmaq məqsədi daşıyır. Azərbaycanın indiki inkişaf mərhələsinə gəldikdə, o keyfiyyətli ümumi təhsilin əlçatanlığı, müasir peşəkar fasiləsiz təhsilin keyfiyyətinin yüksəldilməsi, təhsil sahəsində investisiya cəlbediciliyinin yüksəldilməsi kimi müəyyən edilir. Sadalanan bu prioritet istiqamətlərin həyata keçirilməsi üçün aşağıdakı məsələlərin həlli nəzərdə tutulur:

- müxtəlif təhsil proqramları arasında keçid imkanlarını təmin etmək üçün, təhsilin keyfiyyətinin qiymətləndirilməsinin müstəqil ictimai –dövlət sisteminin yaradılması;

- əmək bazarının dəyişən tələbatlarına cavab vermək məqsədilə, peşəkar təhsilin keyfiyyət standartları və təhsil siyasətinə işəgötürənlərin daxil edilməsi;

- Azərbaycanda təhsil məkanının vahidliyi və dünya təhsil xidməti bazarında rəqabət qabiliyyətini qorumaq məqsədilə gənclərin ərazi, sosial və akademik mobilliyi üçün şəraitin yaradılması;

- təhsil sisteminə maliyyə axınının şəffaflığının təmin edilməsi;
- ictimaiyyətin geniş şəkildə təhsilin idarə olunmasına cəlb edilməsi;
- təhsil sisteminin bütün səviyyələrində təhsilin keyfiyətinin müstəqil qiymətləndirilməsinə təmina
- təhsilin keyfiyyətli kadr potensialının artırılması;
- təhsil sahəsində inkişafın innovativ xarakterinin təmin edilməsi;

- təhsil müəssisələrinin elmi, təhsil və təcrübi fəaliyyətinin inteqrasiyası.

Təhsil və onun modernləşdirilməsi məsələləri yaxın zamanlarda müasir dövrün qlobal problemi statusunu almışdır. Onların aktuallığı dünya ictimaiyyətinin qloballaşma amillərinə və üçüncü minilliyin sosial- mədəni ölçülərinə marağının artması ilə bağlıdır. Bir çox cəhətdən kifayət qədər yaxşı öyrənilmiş insan fəaliyyətinə açıq – aydın diqqət çox çətin ki, sadəcə təsadüfi və ya intellektual dəbə verilən qiymət hesab edilə bilər. Bunun arxasında ümumdünya sivilizasiya prosesinin yeni tendensiyaları və sosial inkişafda informasiyanın və informasiya texnologiyalarının rolunun sürətlə artması dayanır.

Azərbaycanda təhsilin modernləşdirilməsi müstəqil şəkildə deyil, cəmiyyətdə istehsal və bölgü münasibətlərinin islahatı, digər sosial institutların (səhiyyə, mənzil – kommunal təsərrüfatı, dövlət idarəçiliyi müəssisələri) modernləşdirilməsi ilə paralel olaraq həyata keçirilir. Belə bir şəraitdə təhsilin modernləşdirilməsi avtonom xarakter daşımır və həyata keçirilən tədbirlərin yekun nəticəsinə düzəlişlər etməyə qabil olan bir sıra amillərin təsiri altında baş verir. “Modernləşmə” adını almış bu siyasət ali məktəbləri müasir Azərbaycan iqtisadiyyatının tələblərinə uyğunlaşdırmağa kömək edəcək bir sıra fundamental innovativ tədbirləri nəzərdə tutur. Xüsusilə, müasir təhsil texnologiyalarından istifadə zamanı dünya standartlarına nail olmaq, təhsil səviyyələri və dərs proqramları arasındakı maneələrin yumşaldılması, təhsil xidmətlərinin beynəlxalq bazarına çıxış əsas vəzifə kimi qəbul edilir. Eyni zamanda, keyfiyyət, əlçatanlıq və səmərəlilik rəsmi olaraq Azərbaycan peşə təhsilinin modernləşdirilməsinin prioriteti kimi müəyyən edilmişdir. Bununla yanaşı, təhsilin modernləşdirilməsi prosesi hətta uğurlu olsa da belə, kifayət qədər ağrılı sosial xərclərlə müşayiət olunur.

Təhsilin modernləşməsi ilə bağlı idarəetmə qərarları onun hazırki vəziyyətinin və inkişaf tendensiyalarının dərin elmi – təhlilinə, təhsil siyasətinə yeni prinsiplərin, yanaşmaların işlənib hazırlanmasına əsaslanmalıdır. Bütün bunlar isə ali təhsilin aktual problemlərinin yüksək səviyyədə araşdırılması ilə təmin oluna bilər.

Müasirləşmə Azərbaycanın müasir dünyada yaşaya bilməsi üçün həlledici əhəmiyyətə malikdir. Bu problemin tam miqyaslı həlli dünyada qabaqcıl mövqe tutmağa və vətəndaşların rifahının yüksəldilməsini təmin etməyə qadir olan rəqabətəqabil cəmiyyətin formalaşmasına bərabərdir. Bunun üçün cəmiyyətin səmərəli fəaliyyətinin təməlinin əsasları yenidən qurulmalı, daha doğrusu, özünüinkişafa və keyfiyyətcə yüksəlməyə qadir olan sosial – iqtisadi sistem yaradılmalıdır. Bu uzun on illiklər ərzində formalaşmış sosial quruluş dərin dəyişikliklərdən keçməli, yeni inkişaf modelinə keçid etməli, səmərəli və çox vacib olan çoxşaxəli iqtisadiyyat yaradılmalıdır.

A.Mehrabovun da qeyd etdiyi kimi, müasir dövrdə təhsilin əsas vəzifəsi vətəndaş cəmiyyətində yaşayacaq insanın formalaşmasının vasitə və yollarını müəyyənləşdirməyə, onun yüksək mənəvi ideallara və dəyərlərə yiyələnməyə, insan həyatının mənasını anlamağa və dərk etməyə, öz şəxsi həyatında daim nailiyyətlər əldə etməsi üçün səy göstərməyə hazırlamaqdır. Bu tələblərə cavab verən insan ilk növbədə milli dəyərlər əsasında tərbiyə almalıdır. Milli dəyərlərin formalaşması Azərbaycanın görkəmli tarixi şəxsiyyətləri və qəhrəmanlarının həyatı timsalında aparılmalıdır. Burada, həmçinin, Azərbaycan xalqının əsrlərdən bəri formalaşmış və hamı tərəfindən qəbul edilmiş adət -ənənələri, islam dininin dəyərləri böyük rol oynaya bilər (Mehrabov, Abbasov, Mahmudov, 2013: 9).

Azərbaycanın başlıca xüsusiyyəti tək tərəfli deyil, sistemli modernləşmənin aparılmasının zəruriliyi ilə bağlıdır. O, həyatın bütün sahələrini, dövlət və ictimai həyatın təşkilinin bütün səviyyələrini əhatə etməlidir. Ölkənin taleyini təyin edən sistemli modernləşmə Azərbaycanın və regionların, sosial və demoqrafik qrupların bütün subyektlərinin həyat perspektivlərini müəyyən edir, ailələrin və fərdlərin yüksək rifah səviyyəsini təmin edir. Qarşıya qoyulan müasirləşmə vəzifələrinin dərk edilməsi ilə yanaşı, cəmiyyətin özünün əhval - ruhiyyəsini anlamaq , “yuxarıdan” təklif olunan modernləşmə modelinin əhalinin mentalitetinə, maraqlarına, imkanlarına və qabiliyyətlərinə nə dərəcədə uyğun olduğunu əlaqələndirmək vacibdir. Azərbaycanda əhalinin gündəlik həyat xüsusiyyətlərini dəqiq anlamadan Azərbaycan cəmiyyətinin modernləşməyə nə dərəcədə hazır olması və modernləşmə ilə bağlı müxtəlif təşəbbüslərin ölkə əhalisi tərəfindən nə dərəcədə dəstəklənməsi barədə mühakimələr yürütmək mümkün deyil.

Azərbaycanda təhsilin modernləşdirilməsi iqtisadiyyatın modernləşməsinin mühüm bir hissəsi və uğur qazanılmasının əsas şərtidir. İqtisadi sahədə baş verən yüksəliş fasiləsiz təhsil sisteminin formalaşdırılması, təhsilin keyfiyyətinin qiymətləndirilməsi üçün müstəqil ictimai - dövlət sisteminin yaradılması, müxtəlif təhsil proqramları arasında sürətli keçid imkanlarının təmin edilməsi, təhsil bazarında bütün istifadəçilərin, birinci növbədə isə tələbənin özünün maraqlarının qorunması məsələlərini ön plana çıxarır. Fasiləsiz peşə

təhsili sisteminin inkişafı işəgötürənlərin təhsil siyasətinin işlənib hazırlanmasına daxil edilməsinin və peşə təhsilinin keyfiyyət standartlarının mexanizmlərini yaradır, əmək bazarının sürətlə dəyişən ehtiyaclarını daha dolğun nəzərə almağa imkan verir. Bu konteksdə təhsilin əlçatanlığının təmin edilməsi gənclərin ərazi, sosial və akademik səfərbərliyi üçün şəraitin formalaşdırılması kimi daha bir dəyər əldə edir. Təhsilin fasiləsizliyi və gənclərin mobilliyinin yüksəlməsi Azərbaycanın vahid təhsil məkanının qorunmasının və eyni zamanda dünya təhsil məkanında inteqrasiyasının və rəqabətəqabilliyinin təmin edilməsinin təminatçısı olmalıdır. Nəticədə Azərbaycan təhsil sisteminin modernləşdirilməsi, ölkənin sosial – iqtisadi inkişafının mühüm bir elementi olaraq, investisiyalar üçün cəlbedici və açıq sahəyə çevrilməlidir. İnvestisiya cəlbediciliyi üçün fəaliyyətin səmərəliliyi, maliyyə axınının şəffaflığı, təhsilin idarə edilməsində ictimaiyyətin iştirakı və təhsil siteminin bütün səviyyələrində təhsilin keyfiyyətinin müstəqil qiymətləndirilməsi təmin edilməlidir. Cəmiyyətin təhsilə qoyduğu investisiyalar, ilk növbədə bu sahənin büdcədən maliyyələşdirilməsinin səmərəliliyi ilə şərtlənəcək. Yeni maliyyə mexanizmləri tətbiq edilmədən təhsilə əlavə büdcədən kənar vəsaitlərin axınını təmin etmək mümkün deyil. Kadr potensialının artırılması, yüksək keyfiyyətli təhsilin təmin edilməsi və innovativ texnologiyaların tətbiqi cəmiyyət tərəfindən təhsilə sərmayə qoyulmasının əsas şərti olmalıdır. Perspektivli gənc kadrların təhsilə axını o zaman mümkündür ki, bu sahədə əmək haqqı digər sektorlara münasibətdə daha rəqabətli olsun. Təhsilin investisiya cəlbediciliyi təhsil sahəsinin inkişafının innovativ xarakterindən, elmi, təhsil və praktik fəaliyyətin inteqrasiyasından, təhsilin milli innovasiya sisteminə daxil olmasından birbaşa asılı olacaq. Bununla yanaşı, təhsilin innovativ xarakterli olması, gənc nəslə təsir etmək baxımından, digər sosial – institutlarla müqayisədə ən mühüm alətə çevrilir. Hazırki dövrdə təhsil gənc nəslin sosiallaşmasında artıq aparıcı rol oynamır. Kütləvi informasiya vasitələri və kommunikasiyalar, kütləvi mədəniyyət, və reklamlar yeniyetmə və gənclərdə davranış nümunələri və modellərinin fəal istehsalçısına çevrilir. Yeni şəraitdə gənclərdə təhsilə müsbət yönəlişliyin yaradılması üçün təkcə təlimin məzmunu deyil, həm də forma və texnologiyaları da mühüm əhəmiyyət kəsb edir. Təhsilin yeni metod və kanallarının inkişafı gərəkli bir zərurətə çevrilir. Müasir texnologiyalardan istifadə təhsil prosesinin səmərəliliyini artırmaqla yanaşı, şagirdlərin nəzərində təhsilin daha cəlbedici olmasına imkan verir. Eyni zamanda, yeni texnologiyalar təhsilin şəbəkə formalarını, eləcə də, təhsil mühitini inkişaf etdirməyə imkan verir. Qeyri – formal və sistemdən xaric təhsil şəraiti yaratmaqla və bütövlükdə gənclərin siyasət sahəsində yeni texnologiyaları genişləndirməklə təhsil sistemi bu proseslərin indiqatoru kimi çıxış etməlidir. Ümumiyyətlə, təhsilin keyfiyyətinin, əlçatanlığının, səmərəliliyinin yüksəldilməsi, onun davamlı və innovativ xarakter daşıması, gənclərin sosial mobilliyinin və fəallığının artması, onun müxtəlif təhsil mühitlərinə daxil edilməsi təhsil sistemini Azərbaycanın milli təhlükəsizliyinin və vətəndaşların rifahının artmasının təmin edilməsində mühüm amilə çevirir. Hazırda dünya təhsil bazarı yaranmaqdadır. Qloballaşan əmək bazarında və yeni texnologiyaların beynəlxaq bazarında təhsil getdikcə daha çox ölkələri tanıtmaq üsuluna çevrilir və yeni bazarları fəth edərkən tədricən dövlətin geosiyasi və iqtisadi strategiyalarının aparıcı elementlərindən birinə çevrildiyinə görə bu bazarlar yüksək rəqabət qabiliyyətlidir. Bu mübarizədə əsas vasitələr isə təhsil prosesinin idarə edilməsinin səmərəliliyi, ali təhsilin keyfiyyəti, təhsil proqramlarının çevikliyi, tələbələrin fasiləsiz təhsilin beynəlxalq şəbəkələrinə daxil olmaq imkanları və əmək bazarında özünün rəqabət qabiliyyətinin artırılması olacaqdır. Təhsil sistemi ölkənin iqtisadi – siyasi və mədəni səviyyəsi ilə əlaqədar təşəkkül tapır və inkişaf edir. Təhsil sistemləri tam eyniyyət təşkil edən ölkələr yoxdur. Nəinki yüksək dərəcədə inkişaf etmiş ölkələrin, hətta inkişafa qədəm qoymuş ölkələrin təhsil sistemləri də bir – birindən fərqlənir. Bu fərqin əsas səbəbi ölkələrdə həyata keçirilən ictimai – iqtisadi siyasətin və mədəni inkişafın müxtəlifliyidir (İbrahimov, Hüseynzadə, 2012: 267).

Yeni şəraitdə təhsil sahəsində dövlət siyasətinin əsas məqsədi vətəndaşlara iqtisadiyyatın və vətəndaş cəmiyyətinin inkişaf tələblərinə uyğun gələn təhsil hüquqlarının həyata keçirilməsi üçün şərait yaratmaqdan ibarətdir. Odur ki, təhsilin müasirləşdirilməsinin uğurlu olması üçün aşağıdakı tədbirlərin əhəmiyyəti vurğulanır:

- təhsil sisteminə yeni yüksək ixtisaslı və peşəkar kadrların axını hesabına kadr korpusunun yenilənməsi;

- müəllimlərin əmək haqqını orta hesabla iqtisadiyyatda orta əmək haqqı ilə müqayisə oluna bilən səviyyəyə çatdıran və işin keyfiyyətini stimullaşdıran çevik sistem;

- təhsil sisteminin bütün səviyyələrində və vətəndaşların özünütəhsil prosesində təhsil resurslarının əlçatanlığı, hər şeydən öncə, rəqəmsal təhsil resurslarına çıxışın təmin edilməsi, təhsil müəssisəsi istifadəçilərinə və ictimaiyyətə öz fəaliyyətləri barədə mütəmadi məlumatların verilməsi;

- Azərbaycan təhsil sisteminin qlobal təhsil sferası ilə intensiv qarşılıqlı əalqəsi;

- ictimaiyyətin həm qurumlar, həm də bələdiyyə və regional səviyyədə təhsilin idarə edilməsində və keyfiyyətə nəzarət edilməsində iştirakının təmin edilməsi;

- akademik mobilliyi, universitetlər və biznes arasındakı tərəfdaşlığı, innovativ təhsil proqramlarını dəstəkləyən bir neçə qrant proqramlarının tətbiqi.

Modernləşmə tədbirlərinin həyata keçirilməsi prosesində bir sıra qərarlarda, o cümlədən cəmiyyətdə baş verən dəyişiklərin nəzərə alınması zərurətindən irəli gələn məsələlərin həllində bəzi düzəlişlər etmək tələb olunur. Buna görə də, qəbul edilmiş qərarların mühüm təminatı müntəzəm monitorinq məlumatlarına əsaslanan nəzarətdir. Çünki nəzarət zərurət olduqda modernləşmə tədbirlərini dərhal korreksiya etməyə imkan verir (Ağayev, 2006: 56)

Təhsilin modernləşdirilməsinin bu başlanğıc mərhələsində onun həyata keçirilməsinin bütün aspektləri tam aydın deyil. Bununla belə, elmi və pedaqoji ictimaiyyətin nümayəndələri proqnozlaşdırıcı qiymətləndirmə aparmağa çalışırlar ki, bu da onların modernləşmə prosesinə hazır olmalarından və bu prosesə fəal maraqlarından xəbər verir. Beləliklə, Azərbaycanda təhsili idarəetmə orqanlarının rəhbərlərinin əksəriyyəti təhsil sisteminin inkişafının ölkənin uzunmüddətli sosial - iqtisadi inkişafının əsas istiqamətləri ilə, demoqrafik və miqrasiya proseslərindəki meyllərlə sıx surətdə əlaqələndirilməsini vacib hesab edirlər. Təhsil xidmətlərinin səmərəli bazarının formalaşdırılması, təhsilin rəqabətəqabilliyinin təmin edilməsi və keyfiyyətinin yüksəldilməsi üçün fasiləsiz peşə təhsili xidmətləri gösrətmək hüququ olan, o cümlədən, müxtəlif təhsil proqramlarının həyata keçirilməsi üçün resurslara malik olan iri kommersiya və digər qeyri – təhsil təşkilatlarının siyahısını genişləndirmək lazımdır. Peşə təhsilinin bu sektorunun inkişafını təmin etmək üçün təhsil müəssisələrinin idarə edilməsindən təhsil proqramlarının idarə edilməsinə keçmək zəruri olacaqdır. Bunun nəticəsində nəzarət, maliyyələşdirmə və fəaliyyətin keyfiyyətinin qiymətləndirilməsi kimi idarəetmə funksiyaları məhz təhsil proqramlarına münasibətə görə həyata keçirilməlidir. Belə təşkilatların əsas vəzifələrindən biri zəruri peşə ixtisaslarının səviyyəsinə, təlimin məzmun və texnologiyalarına, habelə ictimai istehsalın müxtəlif sahələrində çalışan işçilərin səlahiyyətlərinə tələblərin formalaşdırılması olmalıdır. Göstərilən ictimai – peşə təşkilatları təhsil prosesinin keyfiyyətinə səmərəli nəzarəti və kadr hazırlığının əmək bazarının dinamik tələblərinə uyğunlaşdırılmasını təmin etməlidir.

İctimai – iqtisadi quruluşun dəyişməsi və inkişafı ilə əlaqədar təşəkkül tapan və formalaşan təhsil sistemi öz növbəsində cəmiyətin sonrakı inkişafına, sosial – iqtisadi və mədəni inkişafına təkan verir. Cəmiyyətin necəliyi, mənəvi sərvətin zənginlik dərəcəsi müəyyən mənada təhsil sisteminin necəliyindən aıslıdır. Nəzərə alınmalıdır ki, cəmiyyətdə sosial – iqtisadi həyat dəyişdikcə təhsil sistemi də vaxtaşırı dəyişir müxtəlifliyidir (İbrahimov, Hüseynzadə, 2012: 267).

XXI əsrə qədəm qoymaqla Azərbaycan innovasiyaların inkişafını əsas milli prioritet elan etdi. Növbəti addım isə milli layihələrin hazırlanması oldu. Bu gün əsasında vətəndaş cəmiyyəti, hüquqi dövlət və sivil bazar iqtisadiyyatı modeli kimi təsəvvürlər dayanan təhsil siyasətinə kəskin surətdə tələbat hiss olunur. Vacib olan təkcə dövlət və ictimai maraqlar arasındakı məhsuldar ziddiyyətləri dərk etmək deyil, həm də müxtəlif insan maraqlarının və imkanlarının qarşılıqlı əlaqədə olduğu innovativ məkanın yaranmasına real addımlar atmaq, siyasi, iqtisadi, mədəni institutların təhsil funksiyasını həyata keçirəcəyi müasir sosial – iqtisadi infrastruktur yaratmaqdır. Mövcud sosial – mədəni vəziyyət, texnologiyanın sürətli və davamlı dəyişilməsi insandan mobillik, sürətlə dəyişən bazar tələbatlarına uyğunlaşma bacarığı tələb edir. Dünya məhz belə qurulub. Və buna yalnız təhsilli bir cəmiyyət vasitəsilə daxil olmaq olar. Biz mədəni, o cümlədən pedaqoji ənənə vasitəsilə dünyada öz cəlbedici və layiqli yerimizi tapa bilərik. Ənənələrdən - ölkəni təşkil edən etnik qrup və regionlardan yaranan innovasiya təhsil sisteminin yeni perspektivlər açan inkişaf xəttidir. Texnokratikdən fərqli olaraq, sosial – mədəni modernləşmə daxili və dünya təcrübəsi, mərkəz və regionlar, ənənə və innovasiyalar arasında bərabərhüquqlu dialoq məkanında baş verir və təhsil sisteminin keyfiyyətcə ümumi sivilizasiya transformasiyasını təmsil edir. Belə islahatlar şəraitində təhsilin sosial – mədəni effektləri, ərazilərin sosial – iqtisadi inkişafına təhsilin dəstəyi, təhsilin dövlət siyasəti kimi prioritetliyini təsdiq edən sosial proqramlar, şəxsi və sosial dəyərlər, insanların həmrəyliyi və qarşılıqlı anlaşması ön plana çıxır. Təhsilin aparıcı məqsədlərindən biri insanınn fərdiliyinin real inkişafı, müasir dünyada onun özünü gerçəkləşdirə bilməsi üçün imkan və şəraitin yaradılmasıdır. Təhsilin mobilliyinin, əlçatanlığının və yeni keyfiyyətlərinin əhəmiyyəti artır. Sosial – mədəni yanaşma təhsil reallığına və onun sosial təcrübədə roluna baxışların dəyişməsini bildirir. Təhsil vətəndaşların mənəvi inkişafı və rifahının yüksəldilməsi, icmaların həyat problemlərinin həlli vasitəsi, insanların həyat keyfiyyətlərinin yaxşılaşdırılması üçün bir resurs rolunda

çıxış edir. Məhz sosial – mədəni mühitdə insan həyatının keyfiyyətini tənzimləyən normalar, qaydalar, mexanizmlər formalaşır, təhsil siyasətində və idarəetmədə vətəndaşların şəffaf institusional formada iştirakına tələbat yaranır. Müxtəlif sosial qrupların və ayrı – ayrı insanların təhsilin həlledici məsələlərinin həllinə cəlb edilməsi onlara ölkənin inkişaf yolunu şüurlu surətdə seçməyə kömək edir. Nəticə etibarilə, bütövlükdə modernləşmənin keyfiyyət xüsusiyyətlərini müəyyən edən suallara verilən cavablar ön plana çıxır.

Əgər öyrənənlərin sosial – mədəni mühitdə uğurla sosiallaşmasına və özünü reallaşdırmasına imkan verən təhsilin keyfiyyətinə nail olmaq üçün məktəbin fəaliyyət sərhədlərini genişləndirən sosial – mədəni kontekst nəzərə alınmazsa, o zaman təhsil sistemi təhsil institutu hesab oluna bilməz. Dövlət innovasiya siyasətinin zəruriliyi ümumilikdə sosial – iqtisadi inkişafda innovasiya proseslərinin əhəmiyyətinin artması ilə şərh olunur. Bu gün yeni ilkin resursların cəlb edilməsi ilə inkişaf imkanları ciddi şəkildə məhdudlaşdırılıb. Istifadə olunan resursların keyfiyyətinin və onlardan istifadənin səmərəliliyinin yüksəldilməsi həlledici əhəmiyyət kəsb edir. Azərbaycan Respublikasında təhsilin inkişafı cəmiyyətin konsolidasiyasına, ölkənin rəqabət qabiliyyətinin artırılmasına, müxtəlif qrupların və milli mədəniyyətlərin nümayəndələrinin vətəndaş identikliyinin formalaşmasına, böyüyən nəslin uğurlu sosiallaşmasına yönəlmiş Azərbaycan təhsil sistemnin sosial - mədəni modernləşdirilməsi ümumi strateji təlimatları əldə rəhbər tutur. Təhsilin sosial – mədəni modernləşdirilməsinin ümumi vəzifələrinə aşağıdakılar daxildir:

- çoxmillətli cəmiyyətdə tolerantlıq və inamın sosial normalarının formalaşmasını təmin edən layihələrin hazırlanması;
- digər sosial institutlarda yaranan sosial risklərin kompensasiyası;
- "səriştələrin yenilənməsi səriştəliliyi"nin inkişafı;
- dövlət –ictimai təhsil müqaviləsi əsasında standartların hazırlanması.

Eyni zamanda, sosial – mədəni modernləşmə regionda yaşayan insanların ehtiyac və tələblərinə, respublikanın coğrafi, iqtisadi, mədəni və milli xüsusiyyətlərinə, həyat və fəaliyyətinə cavab verən təhsil sisteminin yaradılmasına öz töhfəsini verməlidir. Həyat qabiliyyətli təhsil sisteminin yaradılması üçün təhsil resurslarının əməkdaşlığı, təhsil müəssisələrini, qəsəbələrin və respublikanın regionlarının sosial – mədəni fonunun xarakterinə müsbət təsir göstərə bilən inteqral innovativ infrastrukturun tədricən genişləndirilməsi lazımdır (Cəbrayılov, 2016: 78).

Ali təhsilin keyfiyyətinin yüksəldilməsi, onun başlıca meyarlarının təmin edilməsi bütövlükdə ali təhsil sistemlərinin yaxınlaşması, birgə proqramların hazırlanması və tətbiqi, diplomların və ixtisasların qarşılıqlı tanınması, yeni-yeni ölkələrin vahid məkana inteqrasiyası məsələlərində qarşıya çıxan ən çətin və mürəkkəb məsələlərdən biri, bəklə də birincisidir müxtəlifliyidir (İbrahimov, Hüseynzadə, 2012: 89).

Sosial – mədəni modernləşmənin məqsədyönlü istiqamətlərinin həyata keçirilməsi aşağıdakı praktik vəzifələrin həlli ilə əlaqələndirilir:

- sosial – mədəni vəziyyətlərin təhlili (rayonların tipologiyasının və sosial – mədəni problemlərin xəritəsinin, mədəni və təhsil prioritetlərinin və mövcud resursların tərtibi);
- vətəndaş (yerli) təhsil sifarişinin tərtibi və təhsilin idarə edilməsində insanların ictimai iştirakının təmin edilməsi;
- dövlət təhsil müqaviləsinin prosedurunun işlənib hazırlanması və icrası;
- təhsil müəssisələrinin, qəsəbə və rayonların sosial –mədəni fonuna təsir edən mədəni – maarif təşəbbüsləri şəbəkəsinin inkişafı;
- respublikada təhsilin dövlət və ictimai idarəçiliyinin inkişafı;

Praktiki problemlərin həlli rayonun məhsuldar sosial – iqtisadi inkişafının əsas şərti kimi təhsilin sosial – mədəni modernləşdirilməsində mühüm addımdır. Təhsillə mədəniyyət üzvü surətdə bağlıdır. Lakin təhsil sisteminin sosial – mədəni funksiyalarını təmin etmək üçün xüsusi institusional dəyişikliklər tələb olunur ki, bu da xüsusi növ modernləşmə zamanı həyata keçirilə bilər. Təhsil prioritetləri təhsil şöbəsi tərəfindən deyil, cəmiyyətin real tələbatları və konkret ərazinin, rayon və qəsəbənin iqtisadiyyatı ilə müəyyən edilir.

Təhsil sisteminin sosial – mədəni modernləşdirilməsinin metodologiyasını sosial – mədəni yanaşma təşkil edir. Bu yanaşmanın əsasında təhsil sisteminin cəmiyyət və mədəniyyət arasında ziddiyyətli

münasibətdə, onların dinamikasında, tarixi inkişafında tədqiqi dayanır. Etnoregional sistem digər bir istinad çərçivəsi kimi çıxış edir. Bu bir tərəfdən, sosial – mədəniliyin konkretləşdirilməsi və lokallaşdırılması, bir etnik qrupun tarixi taleyinin reallaşdığı konkret məkanla birləşməsi, təhsilin xüsusiyyətlərini müəyyən edən həyat tərzi deməkdir. Lakin etnoregional sistem yalnız təhsil sistemnin tərkib hissəsi deyil. Daha doğrusu, bu, təhsilin məqsəd və məzmununda, onun fəlsəfəsində və texnologiyasında ifadə olunan mahiyyətdir.

Sosial – mədəni yanaşma sosial – mədəni vəziyyətlərin təhlili, təhsilin sosiomədəni layihələndirilməsi texnologiyası, elmi-pedaqoji ekspedisiya, təhsil yarmarkaları kimi bir sıra sosiomədəni texnologiyalar, forma və metodlar toplusu vasitəsilə həyata keçirilir. Həyat qabiliyyətli məktəblərin inkişafı və təşkili strategiyalarının işlənib hazırlanmasında müəyyənedici amillərdən biri sosial – mədəni vəziyyətlərin tipi – yəni yerli mədəni - tarixi ənənələrin və müasir sosial – mədəni fon səviyyəsinin kombinasiyasıdır. Sosial – mədəni vəziyyətin təhlili təkcə təhsil müəssisələrinin yerləşdiyi tipik vəziyyətləri diaqnoz etməyə deyil, həm də təhsil fəaliyyətinin və onun inkişaf modelinin ən məqsədəuyğun və dəyişkən strategiyalarını işləyib hazırlamağa və həyata keçirməyə imkan verir. Təhsilin sosial – mədəni modernləşdirilməsi təhsilin inkişafının müxtəlif strategiyalara uyğun gələn ayrı - ayrı kənd və rayonların öyrənilməsi və inkişaf etdirilməsi məqsədi daşıyır. Məsələn: innovativ şəbəkələr, milli regionların sosial – iqtisadi inkişafına təhsil dəstəyi; rayon mərkəzinin inzibati, informasiya və sosial – mədəni funksiyalarının bölünməsi və rayonun bir sıra yaşayış məntəqələrində sosial – mədəni mərkəzlərin yaradılması ilə bağlı olan çoxmərkəzlilik. və s.

Təhsil sosial – mədəni vəziyyətləri nəzərə almadığına görə sosial –mədəni baxımdan laqeyddir, bu isə yalnız cəmiyyətin deformasiyasını və dehumanistləşdirilməsini dərinləşdirə bilər. İdarəetmə qərarlarının respublikanın sosial – mədəni reallıqlarına uyğunluğu təhsil məkanının informasiya inteqrasiyasını sürətləndirəcək, məktəblərin əlçatmaz ərazilərdən təhsil resurs mərkəzlərinə çıxışını təmin edəcəkdir. Təhsilin sosial – mədəni modernləşdirilməsi, ilk növbədə, dəyərlərin, sosial təşkilatların və mədəniyyət formalarının modernləşdirilməsidir. Beləliklə, sosial – mədəni modernləşmənin idarə edilməsi və inkişafı strategiyalarını aşağıdakılarda görmək olar:

- Təhsil siyasətində təhsil hadisələrinin mürəkkəbliyi və müxtəlifliyinə əsaslanmaq;
- Sosial –iqtisadi inkişafa təhsil dəstəyini təmin edən ünvanlı təhsil layihələri əsasında qərarlar qəbul etmək; şəxsi mədəni və təhsil təşəbbüslərini stimullaşdırmaq;
- Yerli ictimaiyyətin mədəni –maarif fəaliyyətinin zənginliyinə əsaslanmaq;
- vətəndaş cəmiyyətinin demokratik proseduralar (təhsil sifarişi, ictimai müqavilə) yolu ilə topladığı gücə əsaslanmaq.

Təhsil yeni məktəb quruculuğunun indiki mərhələsində demokratik dövlətin yaradılmasının, onun mədəni və mənəvi intibahının, bazar münasibətlərinin təşəkkülünün, elm və texnikanın inkişafının əsasında durmalıdır. Təhsildə ictimai və şəxsi maraqları necə birləşdirmək problemi həll olunmalıdır, yəni bir tərəfdən ictimai tələbatlar ödənilməsi, o biri tərəfdən isə hər bir insan üçün zəruri və cəlbedici olmalıdır müxtəlifliyidir (İbrahimov, Hüseynzadə, 2012: 293).

Təhsil sistemi respublikanın sosial və təhsil sferasında idarələrarası kompleks qarşılıqlı əlaqə şəraitində əsas, sistem formalaşdırıcı bir instituta çevrilir. Belə qarşlıqlı əlaqənin mənası bütövlükdə regionun sosial – iqtisadi inkişafına təkan verən, ictimai fəaliyyət sahəsi kimi təhsilin inkişafı Proqramının hazırlanmasında və həyata keçirilməsindədir. Yaxın gələəcəkdə Azərbaycan Respublikasında təhsilin sosial – mədəni modernləşdirilməsinin gözlənilən nəticələri aşağıdakılardır:

- sosial –mədəni təhlil təhsil sahəsində siyasi və idarəetmə ilə bağlı qərarların əsası kimi;
- innovasiyaların inkişafı və təkmilləşməsi;
- şəbəkələrin inkişafı;
- yeni iş yerlərinin açılması;
- sosial – mədəni layihələr;
- regional strategiyalar və qanunlar;
- ictimai təhsil müqaviləsi;

Təhsil kontekstləri – geniş mənada, təhsil sisteminin mövcud olduğu və fəaliyyət göstərdiyi, təhsil proseslərinin baş verdiyi bir mühitdir. Çox vaxt kontekst anlayışı xarici sosial amillərin yerli məktəb hadisələrinə təsirini təhlil edərkən istifadə olunur (makrososial kontekst). Digər bit kontekst növü məktəb

daxilində yaranır və pedaqoji problemləri həllinə birbaşa və ya dolayı yolla təsir göstərən şərtlər və amillər məcmusu ilə əlaqələndirilir (mikrososial kontekst). Pedaqoji reallığın öyrənilməsində həmçinin təhsilin polidisiplinar, təhsilin ictimai – siyasi, ictimai – tarixi, sosial – mədəni, konstitusional kontekstləri fərqləndirilir. Sosial – mədəni kontekst məktəbin sosial və mədəni, tarixi və müasir, mədəni və tarixi ənənələrini müasir sosial – mədəni mühiti ilə əlaqələndirən əsas və inteqrativ kontekstlərdən biridir. Bu kontekst təhsil təcrübəsi ilə sıx bağlıdır. Ana dili, dəyərlər, ənənələr, xalq – təhsilin məzmunun canlı daşıyıcıları və qeyri – formal təhsil ictimaiyyəti kimi yaradıcı başlanğıclar təhsilin sosial – mədəni kontekstinə daxildir.

**Nəticə**

Azərbaycan təhsil siyasətinin əsas vəzifəsi onun fundamentallığının qorunması, şəxsiyyətin, cəmiyyətin və dövlətin aktual və perspektiv tələbatlarının nəzərə alınması əsasında təhsilin keyfiyyətinin yüksəldilməsindən ibarətdir. Təhsilin modernləşdirilməsi siyasi və ümummilli məsələdir. Cəmiyyətin və dövlətin təhsil sahəsində maraqları təhsil sisteminin bu sahədə öz maraqları ilə həmişə üst - üstə düşmür və buna görə də təhsilin modernləşdirilməsi və inkişafı istiqamətlərinin müəyyənlənləşdirilməsi təhsil ictimaiyyəti və təhsil şöbələri çərçivəsində məhdudlaşdırıla bilməz. Azərbaycan cəmiyyətinin bütün vətəndaşları, ailə və valideyn cəmiyyətləri, dövlət hakimiyyət orqanları, yerli özünüidarəetmə orqanaları, peşə - pedaqoji ictimaiyyət, elmi, mədəni, kommersiya və ictimai insitutlar bütövlükdə təhsil siyasətinin fəal subyektlərinə çevrilməlidir. Təhsilin modernləşdirilməsinin əsas məqsədi təhsil sisteminin davamlı inkişafı mexanizmini yaratmaqdır. Bu məqsədə nail olmaq üçün bir – biri ilə əlaqəli olan aşağıdakı məsələlər həll edilməlidir:

- Mükəmməl təhsil ala bilmək üçün təhsilin əlçatanlığının və bərabər imkanlarının dövlət təminatının təmin edilməsi;
- Məktəbəqədər, ümumi və peşə təhsilinin yeni müasir keyfiyyələrinə nail olmaq;
- Təhsil sistemində büdcədənkənar amillərin cəlb edilməsinin və istifadəsinin hüquqi – normativ və təşkilati- iqtisadi mexanizmlərinin formalaşdırılması;
- Təhsil işçilərinin sosial vəziyyətinin və peşəkarlığının yüksəldilməsi, onlara ictimai və dövlət dəstəyinin gücləndirilməsi.

Dövlətin müasir təhsil siyasətinin əsasını sosialyönümlülük və sosial maraqların tarazlığı təşkil edir. Təhsilin müasirləşdirilməsinin strateji məqsədinə yalnız təhsil sisteminin xalq təsərrüfatı, elm, mədəniyyət, səhiyyə nümayəndələri, bütün maraqlı idarə və təşkilatlar, valideynlər və işəgötürənlərlə daimi qarşılıqlı əlaqəsi prosesində nail olmaq olar. Təhsilin modernləşdirilməsinin həyata keçirilməsi demək olar ki, hər bir azərbaycanlı ailəsinə təsir göstərir. Təhsildə baş verən dəyişikliklərin mahiyyəti, onların məqsədləri, istiqamətləri, metodları əhaliyə mütəmadi olaraq izah edilməli, ictimai rəyin nəticələri təhsil orqanları və təhsil müəssisələrinin rəhbərləri tərəfindən yaxından öyrənilməli və təhsilin müasirləşdirilməsi zamanı nəzərə alınmalıdır.

**Ədəbiyyat**

Ağayev Ə. (2006). Təlim prosesi: ənənə və müasirlik. Bakı: Adiloğlu

Cəbrayılov İ. (2016). Müasir təhsilə innovativ yanaşmalar. Bakı: Mütərcim

İbrahimov F. , Hüseynzadə R. (2012). Pedaqogika. Bakı: Mütərcim

Mehrabov A., Abbasov A., Mahmudov M. (2013). Təhsilin modernləşdirilməsinin aktual problemləri. Bakı: Mütərcim

**Extended Abstract**

To preserve its fundamentality, to improve the quality of education based on the consideration of the actual and prospective needs of the individual, society and the state is the main task of Azerbaijan educational policy. Modernization of education is a political and national problem.

The interests of society and the state in the field of education do not always coincide with the own interests of the educational system in this area, and therefore the definition of directions for the modernization and development of education cannot be limited to the educational community and departments of education. All citizens of Azerbaijani society, family and parent societies, state authorities, local self-government bodies, the professional and pedagogical community, scientific, cultural, commercial and public institutions should become active subjects of educational policy in general.

The main goal of modernizing education is to create a mechanism for the sustainable development of the education system. The importance of education in modern conditions is due to the fact that it ensures the development and reproduction of human capital, which in the post–industrial period becomes the driving force of socio-economic development. Based on psychological and pedagogical concepts, human capital can be defined as the socio-professional competence of a specialist. This manifests itself as knowledge and experience, valuable personal and professional qualities that ensure readiness and ability to responsibly and effectively solve various personal and professional tasks.

Mehrabov stressed that one of the main directions of modernization of education is related to the development of human capital. In developed countries, human capital accounts for 70-80% of national wealth. This puts the development of youth education in these countries at the forefront, as well as the education of the entire population throughout their lives. Strategic planning of higher education institutions is studied in the article.